

**Əkbərov Vüqar Seyid oğlu**

Vüqar Seyid oğlu Əkbərov 12 sentyabr 1990-cı ildə Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub. Vüqar Əkbərov 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olub. 2012-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Vüqar Əkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Hadrutun, Zəngilanın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Vüqar Əkbərov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.